# KİTABXANAŞÜNASLIĞIN MÜASİR PROBLEMLƏRİ

**A.A.XƏLƏFOV**
**BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, prof.**
**axelefov@mail.ru**

*Məqalədə kitabxana-informasiya cəmiyyəti şəraitində kitabxanaşünaslığın qarşısında duran müasir problemlər geniş şərh edilmiş, yeni elmi-nəzəri ideyalar ümumiləşdirilmiş, "elektron kitabxana işi", "elektron kitabxanaşünaslıq" və onların nəzəri-praktiki təhlili, kitabxanaşünaslığın tərkib hissəsi kimi öyrənilməsi əsaslandırılmışdır.*

**Açar sözlər:** *kitabxanaşünaslıq, elektron kitabxanaşünaslıq, çap məhsulu, elektron kitab.*

Kitabxanaşünaslıq cəmiyyətdə kitabxanaların tarixini, kitabxanaçılıq proseslərinin inkişaf qanunauyğunluqlarını, xassələrini, xarakterini, strukturunu, sosial funksiyalarını və çap əsərlərindən, elektron kitablardan, elektron vasitələrdən ictimai istifadənin təşkili problemlərini tədqiq edib öyrənən, sistemləşdirən, nəzəri müddəalarla zənginləşdirən humanitar elmdir.

Kitabxanaşünaslığın bir elm kimi formalaşması olduqca böyük tarixi-təkamül yolu keçmişdir. Kitabxanaşünaslıq elminin rüşeymləri hələ b.e.ə III minillikdə qədim dünyanın ilk dövləti olan Şumerdə ilk kitabxanaların yaradılması dövrünə təsadüf edir. Məhz Şumer kitabxanalarında kitabxana təcrübəsinə əsaslanan ilk kitabxanaçılıq fikirləri meydana gəlmişdir. Kitabxana və kitabxana işi haqqında ilk bəsit, elementar, hələ sistemləşməmiş, elmi səviyyəyə yüksəlməyən bu fikirlər olduqca keşməkeşli, daşlı-kəsəkli bir yol keçmiş, zaman keçdikcə ayrı-ayrı ölkələrdə və cəmiyyətlərdə mədəniyyət yüksəldikcə, kitabxanaların elmdə, təhsildə, mədəni quruculuqda mövqeyi möhkəmləndikcə təkmilləşməyə, sistemləşməyə, formalaşmağa, elmi fikirlərə çevrilməyə başlamışdır. Məhz buna görədir ki, kitabxanaşünaslığın keçmişini, bu gününü və gələcəyini öyrənmək üçün kitabxanaçılıq fikirlərinin keçdiyi yolu, inkişaf tarixini tədqiq edib öyrənmək zərurəti yaranır. Kitabxanaşünaslıq tarixinin öyrənilməsi bu elmin inkişafında baş verən bütün proseslərin, yaranan nəzəriyyə, təcrübə və anlayışların tədricən, təkamül yolu ilə təkmilləşməsini, sistemləşməsini, formallaşmasını, həmçinin strukturunda baş verən dəyişiklikləri, yeniləşmələri və bütün bunların cəmiyyət, elm və mədəniyyət tarixi ilə əlaqədar olduğunu aşkara çıxarır.

Elm tarixindən məlumdur ki, "tarixi olmayan elmin nəzəriyyəsi yoxdur" (N.Q.Çernışevski). Tarixi inkişaf prosesində kitabxana işində baş verən yeniliklər, formalaşan qanunauyğunluqlar, kitabxanaların iş təcrübəsinin

öyrənilib ümumiləşdirilməsi, sistemləşdirilməsi yeni kitabxanaşünaslıq ideyalarının, anlayışlarının meydana çıxmasına və onların gerçəkləşdirilməsi üçün nəzəriyyənin yaranmasına şərait yaradır.

Tədricən sistemləşən kitabxanaçılıq ideyaları və anlayışları kitabxanaşünaslığın elmi-nəzəri əsaslarının yaranmasını təmin edir və kitabxanaların iş təcrübəsinin ümumiləşdirilməsi əsasında kitabxana işinin inkişaf istiqamətlərini və qanunauyğunluqlarını formalaşdırır.

Beləliklə, kitabxana və kitabxana işi haqqında kompleks elm olan kitabxanaşünaslıq beş min il gil lövhələr saxlayan ilk Şumer kitabxanalarından, bugünkü informasiyalaşdırılmış, milyonlarla kitab fondu, elektron daşıyıcıları olan, cəmiyyətin inkişafının əsas atributlarından biri-institut kimi formalaşan müasir kitabxanalara qədər bütün kitabxanaların inkişaf yolunu işıqlandırmışdır. Kitabxanaşünaslıq əhaliyə kitabxana-informasiya xidmətinin səviyyəsini zamanın tələbləri səviyyəsinə yüksəldə bilən elmi-nəzəri tövsiyələr və konsepsiyalar hazırlamışdır.

Bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxanaların beş min ildən artıq yaşı vardır. Bu uzun və şərəfli yolu müvəffəqiyyətlə qət edən kitabxanalar bəşəriyyətin işıqlı gələcəyinə xidmət etmişlər. Öz xeyirxah fəaliyyətini insanlara həsr edən, bəşər biliyinin qorunub saxlanmasında, sivilizasiyanın inkişafında, daha da təkmilləşməsində, elmi nailiyyətlərin, mənəvi sərvətlərin nəsildən-nəslə ötürülməsində, humanist ideyaların daşıyıcıları kimi insanlığa, insanın fərdi inkişafına böyük töhfələr vermişdir. Nəsillər nəsilləri əvəz etmiş, insan ruhunu, insanların yaratdığı mənəvi, elmi sərvətləri qoruyub saxlayan fikir və zəka mənbəyi, insanların zehni düşüncəsi, bəşəri yaddaş olan kitabları mühafizə edən kitabxana isə qalmışdır. Kitab ilk növbədə milli sərvətdir. Milli sərvət olan kitablar eyni zamanda ümumbəşəri sərvətdir. Biliyin, elmin vətəni yoxdur. Bir ölkədə yaranmış elm bütün dünyaya məxsusdur. Dünyanın böyük mütəfəkkirlərinin yaratmış olduğu elm, mədəniyyət və incəsənət qısa bir zaman kəsiyində bütün bəşəriyyətin malına çevrilir. Bəşəriyyətin malına çevrilən bütün elmi, mədəni sərvətlər kitablarda toplanır. Bəşəri sərvətlərin məcmusu olan kitablar ölməzdir. Dünyanın dahi insanlarının, mütəfəkkirlərinin, filosoflarının, alimlərinin, yaradıcı ziyalılarının yazıçı və şairlərinin yaratdığı elmi nailiyyətlər, sənət inciləri, bilik mənbəyi, elm və mərifət mənbəyi olan kitablar dahi mütəfəkkirlərin ruhudur. Ruh isə ölməzdir. Minillər bundan əvvəl yaranmış dahi şəxsiyyətlərin ölməz kitabları bu gün də insanlara, onun elminə, təhsil və tərbiyəsinə, mədəniyyətinə xidmət edir. Deməli, bəşər mədəniyyətini qoruyub saxlayan, nəsildən-nəslə ötürən kitablar insanlara qalır, insanlığın tərəqqi və inkişafına, işıqlı gələcəyinə xidmət edir.

Beş min ildir ki, bəşəriyyətə xidmət edən kitabxanalar bütün ölkələr və xalqlar tərəfindən yüksək qiymətləndirilmiş, onların yaradılması, qorunub





saxlanması, onlara hörmət və ehtiram göstərilməsi, cəmiyyətin əsas atributlarından biri kimi həmişə diqqət mərkəzində olmuşdur. Məhz buna görədir ki, kitabxanalara hörmət bütün sivil cəmiyyətlərin həyat devizi olmuşdur.

Ulu öndər Heydər Əliyevin dediyi kimi: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir"[1].

Ulu öndərin kitabxanalar haqqında bu müdrik kəlamını həm 5 min illik bəşər tarixi, həm də Azərbaycan mədəniyyət tarixi bir daha təsdiqləyir. Kitabxanalar ümumbəşəri sərvətdir. İnsanlığın işıqlı gələcəyinə xidmət edən həmişə yaşar, ümumbəşəri bir təsisatdır – institutdur. Bu institutu cəmiyyət yaratdığından cəmiyyət kitabxanaların hamisidir. Kitabxanalar cəmiyyətə xidmət edir, cəmiyyətin ayrılmaz tərkib hissəsidir.

Kitabxanalar haqqında bəşəriyyət tərəfindən qəbul edilmiş bu məlum və inkaredilməz fikirləri söyləməkdə məqsədimiz son zamanlar informasiya cəmiyyəti şəraitində kitabxanaların yeri, vəzifələri haqqında yeni vəzifələr başlığı altında ənənəvi kitabxanalar, onların lazım olub-olmaması haqqında qeyri-elmi fikirlərin söylənilməsidir.

Doğrudur, cəmiyyətin inkişafı ilə əlaqədar zaman-zaman kitaba, kitabxanalara münasibət dəyişmiş, dini, siyasi və ideoloji baxışlar kitabxana işinə də mənfi və müsbət təsir göstərmişdir.

Qədim və antik dünyada kitabxana işi mədəniyyətin çox mühüm sahəsi, bəşər elminin, təhsilinin, ədəbiyyat və incəsənətinin əsas hərəkətverici qüvvəsi kimi qiymətləndirilirdisə, orta əsrlərdə krelikalizm kitabxanaların inkişafına olduqca ciddi zərbə vurdu. Orta əsrlərin ikinci yarısından başlayaraq intibah, reformasiya və maarifçilik cəmiyyətlərində baş verən mütərəqqi proseslər yenidən kitabxana işini elm və mədəniyyətin, təhsilin əsas və həlledici amili kimi qiymətləndirməyə diqqəti artırmışdır.

Bu cür münasibətlər əsrlər boyu davam etmiş, ancaq meydana gələn, hələ cəmiyyət tərəfindən qəbul edilməyən baxışlar və ideyalar özünü doğrultmadığı üçün iflasa uğramışdır. Belə baxışlar və qeyri-elmi fikirlər XX əsrin axırlarında ABŞ-da və Avropanın bəzi ölkələrində informatikanın inkişaf etdiyi, informasiya cəmiyyətinin formalaşdığı, internetin fəaliyyətinin genişləndiyi illərdə də ortaya çıxmağa başladı. Elektron kitablara, vasitələrə, internetə, cəmiyyətin bütün sahələrində sürətlə tətbiq edilən kompüterləşməyə və informasiyalaşdırmaya aludə olan bəzi informatiklər, elektronika sahəsinin mütəxəssisləri elektron vasitələrin guya ucuz başa gəlməsini və daha çox istifadə üstünlüklərinə malik olmasını əsas gətirərək, elektron kitabxanaları ənənəvi kitabxanalara qarşı qoymağa cəhd göstərmişlər.

[1] Xələfov A. Kitabxana və cəmiyyət. B., 2011, s. 3.

Ancaq zaman keçdikcə ənənəvi kitabxana xidməti ilə elektron vasitələrlə oxucuya xidmətin ayrı-ayrı cəhətləri, xüsisiyyətləri, oxucuya xidmət prosesində ortaya çıxan metod və üsulları və onların müqayisəli şəkildə təhlili bir daha sübut etdi ki, elektron kitabxanalar, elektron vasitələrlə kitabxana xidmətinin təşkili heç də ənənəvi kitabxana xidmətini əvəz edə bilmir, əksinə, ənənəvi xidmətin daha da təkmilləşməsinə xidmət edir. Əhaliyə kitabxana-informasiya xidmətinin təşkili sahəsində son dövrün təcrübələri bir daha təsdiq etdi ki, elektron vasitələrlə oxuculara xidmət hec də ənənəvi kitabxana xidmətini əvəz etməyə qadir deyil və informasiya xidməti ənənəvi xidmətin forma və üsullarından istifadə etmədən lazımi effekt verə bilməz. Məhz buna görədir ki, qarşıya belə bir sual çıxır. Beş min il tarixi olan, bəşəriyyətin işıqlı gələcəyinə xidmət edən ənənəvi kitabxanalardan imtina etmək, nə dərəcədə məqsədəmüvafiq olar.

Bu sual son zamanlar milyonlarla peşəkar kitabxanaçılar ordusunu və ənənəvi kitabxanaları elektron kitabxanalarla əvəz etməyə can atan informatikləri daha çox düşündürür.

Sevindirici haldır ki, ənənəvi kitabxanaçılığa qarşı yönəlmiş bu səslər XX əsrin 90-cı illərində və XXI əsrin əvvəllərində sürətlə yavaşımağa, səngiməyə məruz qaldı. Bəs bu səslərin belə olduqca kiçik zaman kəsiyində səngiməsinin səbəbi nə oldu? Əlbəttə, cəmiyyətdə baş verən proseslər, əldə edilmiş təcrübə, onların təhlili və müasir informasiya cəmiyyətində kitabxanaların durmadan artan rolu və əhəmiyyəti bu səbəblər sırasındadır.

Həm kitabxanaşünaslar, həm də informatiklər belə bir ortaq məxrəcə gəldilər ki, informasiya cəmiyyətinin qarşıda qoyduğu, cəmiyyətin informasiya təminatını qüsursuz həyata keçirmək, cəmiyyət üzvlərinin əksəriyyətini kitabxana-informasiya xidməti ilə əhatə etməyin ən münasib yolu ənənəvi kitabxanaçılıqla elektron kitabxanaçılığın inteqrasiyasını həyata keçirmək, ənənəvi kitabxanaçılığın ayrı-ayrı sahələrini kitabxana-informasiya texnologiyası ilə təmin etməkdən ibarətdir.

Göstərilən taleyüklü vəzifələrin yerinə yetirilməsi hər şeydən əvvəl kitabxanalarda dərin islahatların aparılmasını, gələcəyə yönəlmiş proqramların işlənib hazırlanmasını, həyata keçirilməsini tələb edir. Məqsədyönlü dərin islahatların aparılması qaçılmazdır. Belə ki, yeni zaman, yeni cəmiyyət özü ilə birlikdə yeni texnologiya, texnoloji tərəqqi, ümumiyyətlə, yeni inkişaf gətirir. Əgər kitabxanalar informasiya cəmiyyətinin qarşıda qoyduğu yeni islahatlarla ayaqlaşa bilməzsə, öz sosial funksiyalarını yerinə yetirməkdə çətinlik çəkər, sosial institut kimi öz fəaliyyətini dayandırmaq qarşısında qalar.

Doğrudur, hələ də cəmiyyətdə bu islahatların normal şəraitdə, dialektik inkişaf baxımından aparılmasına mane olan "sağ" və "sol" qüvvələr (kitabxanaçılar və informatiklər) vardır. Bu qüvvələr içərisində mənim "sağlar" adlandırdığım mühafizəkar kitabxanaçılar ancaq ənənəvi kitabxanaçılıqdan





bərk-bərk yapışaraq, cəmiyyətin informasiya tələbatının ödənilməsi şəraitində baş verən yenilikləri görmürlər, aparılması olduqca zəruri olan islahatlara qarşı çıxmağa can atır, elektron kitabxanaçılıqdan yan keçməyə üstünlük verirlər. Bu isə yeniliyə qarşı çıxmaq, inkişafı görməməkdir.

İkinci qrupa daxil olan, sollar isə informatiklərdir. Bunlar ultra yenilikçilər, keçmiş təcrübəni, kitabxanaların keçdiyi yolu, əldə edilmiş ümumbəşəri təcrübəni qiymətləndirməkdən yan keçən, yeni informasiya texnologiyalarına aludə olan insanlardır. Onlar açıq-açığına olmasada dolayı yollarla ənənəvi kitabxanaların əleyhinə çıxış edir, kitab nəşrinin tezliklə elektron kitablarla, kitabxanaların isə elektron kitabxanalarla əvəz edilməsinə tələsirlər. Kitabxanaların minillər boyu formalaşmış struktur quruluşunu və sosial vəzifələrini qısa zaman kəsiyində dəyişməyə çalışan, onların tipinə, növünə, xidmət sahəsinə, fəaliyyət göstərdiyi ətraf mühitə, oxucuların əhatə dairəsinə, onların tələb və sorğularını necə ödəyəcəyinə məhəl qoymurlar. "Sola" nüfuz edən belə mütəxəssislər mən deyirdim ki, "sağa" nüfuz edənlərdən də təhlükəlidirlər. Onlar dərk etməlidirlər ki, bəşəriyyətin yaddaşı olan kitabxanalar elm, bilik, mənəviyyat mənbəyi kimi, insan ruhunun bütün zənginliklərini toplayıb, qoruyub saxlayan, onu nəsildən-nəslə ötürən əvəzedilməz mənəvi abidədir. Beş min il şərəfli tarixi yol keçmiş, daim bəşər övladının işıqlı gələcəyinə, elminə, təhsilinə, mənəviyyatına xidmət etmiş, insanlığın kamilləşməsinin, insan ağlının, zəkasının dərinləşməsinin, əxlaqının saflaşmasının əsas amili olmuş bu mənəvi abidə həmişəyaşardır, əbədidir, bəşəridir, cəmiyyətin, sivilizasiyanın məhək daşıdır.

XX əsrin ikinci yarısından elm sahəsi kimi inkişaf edib təkmilləşən informatika elmi ənənəvi kitabxanaçılığın, cəmiyyətin gələcək inkişafı üçün səmərəsizliyi haqqında, onu əvəz edə biləcək yeni bir müəssisənin yaradılması haqqında əsaslı bir ideya irəli sürə bilmədi. Qloballaşan dünyada bu problemin həllinə ənənəvi kitabxanaçılıqla informasiyanın nailiyyətlərinin inteqrasiyası kimi daha çox səslər ucalmağa başladı. Bizcə, belə dünyabaxışı daha səmərəli, müasir dünyanın strategiyasına daha münasib baxış ola bilər.

Bu baxımdan son zamanlar informasiya cəmiyyəti şəraitində ənənəvi kitabxanaçılığa qarşı dünyada gedən proses daha dözümlüdür. Hiss edilmədən ənənəvi kitabçılığa, kitabxanaçılığa, ümumiyyətlə, kitaba və mütaliəyə münasibət müsbət mənada daha pozitiv xarakter daşımağa başlayıb. Dünyanın qabaqcıl ölkələrində son dövrlərdə ənənəvi kitabxanaçılıqla informasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifələrə uyğun formalaşmış, kitabxana işinin informasiyalaşdırılması prosesi arasında canlı və səmərəli inteqrasiya prosesi daha geniş yayılmağa, özünü təsdiqləməyə başlamışdır. Bu yeni ideyalar YUNESKO-nun informasiya cəmiyyətində kitabxanaların yeri haqqında bəyanatında daha düzgün istifadə edilmiş, "Kitabxanalar informasiya cəmiyyətinin ürəyi" adlandırılmışdır.

Son zamanlar qloballaşan dünyada kitabxana-informasiya xidmətinə eləcə də ayrılıqda cəmiyyətin informasiya təminatına həsr edilmiş beynəlxalq elmi konfranslarda, simpoziumlarda demək olar ki, ənənəvi kitabxanaların elektron kitabxanalarla, ənənəvi kitabların elektron kitablarla əvəz edilməsi problemi gündəlikdən çıxıb. Bunun əvəzində əsas problem kimi kitabxana-informasiya infrastrukturunun bizim yaşadığımız informasiya təcavüzü əsrində inkişafı prinsipləri meydana gəlmişdir[2].

Bu inkişaf sanki düşünülmüş qaydada, ənənəvi kitabxanaların strukturunda, sosial vəzifələrində heç bir radikal dəyişikliklər aparılmadan informatika elminin son nailiyyətlərinə, kitabxana informasiya texnologiyasının, avtomatlaşdırılmış informasiya proqramlarının böyük kitabxanalarda tətbiqinə, kitabxanaların kompüterləşməsinə, kitabxana işi ilə informatikanın inteqrasiyasına gətirib çıxardı. Bu proses tədricən kitabxana işinin bütün sahələrinə kitabxana fondunun komplektləşməsindən, fondun formalaşmasından başlayaraq kitabxana kataloqlarının təşkilinə, məlumat-informasiya aparatına, kitabxananın ucot, hesabat və statistika fəaliyyətinə və oxuculara xidmət işinin təşkili prosesinə tətbiq edilməyə başladı. Ənənəvi kitabxana işi ilə informasiyalaşdırılmış kitabxana işi arasında biri digərini tamamlayan nəzəri cəhətdən əsaslandırılmış, ümumiləşdirilmiş elə yeni elmi ideyalar meydana gəldi ki, bunları biri-birindən ayırmağın, onları ayrıca təhlil etməyin qeyri-mümükünlüyü ortaya çıxdı.

Beləliklə, elektron kitabxanaşünaslığın tərəfdarları özləri də bilmədən ənənəvi kitabxanaşünaslığın tərkib hissəsinə çevrildilər. Ənənəvi kitabxanaşünaslar isə elektron kitabxana işini və elektron kitabxanaşünaslığı ənənəvi kitabxanaşünaslığa tətbiq etməklə, onların olduqca zəruri olan təcrübəsindən istifadə nəticəsində kitabxanaşünaslığın nəzəriyyəsini, kitabxanaçılıq ideyalarını və anlayışlarını yeni dövrün tələblərinə cavab verən ideya, nəzəriyyə və anlayışlarla zənginləşdirdilər, onu gələcəyə baxan, böyük perspektivləri olan elmə çevirdilər.

İnformasiya cəmiyyətinin qarşıya qoyduğu vəzifələrə uyğun kitabxanalarda aparılan dərin islahatlar, yenidənqurmalar və yeni texnologiyaların tətbiqi, kitabxana işinin məzmununda müasir iş proseslərinin formalaşmasına, oxuculara xidmət işinin keyfiyyətinin daha da yüksəlməsinə, yeni iş forma və metodlarının meydana gəlməsinə səbəb olmuş, ənənəvi kitabxanaçılıqla yanaşı elektron kitabxanaçılığın geniş tətbiqinə şərait yaratmışdır. Belə ki, kitabxanaşünaslıq elmlərinin tətqiq edib öyrəndiyi obyektin özünün strukturunda, işinin məzmununda öyrənilməsi, tədbiqi sahəsində həll edilməsi zəruri olan, innovasiya xarakterli problemlər ortaya çıxmışdır. Bu problemlərin həlli isə ənənəvi kitabxanaşünaslıqda hələ öyrənilməmiş, tədqiqat obyekti olmamış, yeni problemlərdir. Bu problemlər bilavasitə kitabxana işinin informasiyalaşdırılması, kompüterləşdirilməsi prosesləri ilə bağlı olduğundan yeni kitabxanaşünaslıq ideyalarının, biliklərinin, anlayışlarının yaranmasını və formalaşmasını tələb edir. Bu biliklər bilavasitə kitabxanalarda tətbiq edilən kitabxana və informasiya texnologiyası ilə əlaqədər olduğundan informatikanın kitabxana işi ilə inteqrasiyası məsələləri dövrün əsas məsələsidir. Kitabxanaşünaslığın tarixən bir müstəqil elm kimi formalaşdığı dövrdən zəmanəmizə qədər ənənəvi kitabxanaşünaslıq öz tədqiqat və öyrənmə obyekti olaraq kitabxanaların tarixi, struktur quruluşunu, məqsəd və vəzifələrini fondun komplektləşməsi, təsnifləşdirilməsi, düzülüş qaydalarını, biblioqrafik-məlumat axtarış sisteminin yaradılması, həmçinin oxuculara xidmət prosesinin forma və üsullarını öyrənirdi.

İnformasiya cəmiyyəti kitabxana işində böyük inqilab yaratmış, kitabxanaların qarşısında qoyulan vəzifələr, onların strukturu, fondunun tərkibi, məlumat axtarış sistemlərinin təşkili, oxuculara xidmət işinin forma və üsullarının islahatı sahəsində böyük yeniliklər baş vermişdir. Bu yenilikləri həyata keçirmək üçün ənənəvi kitabxanaşünaslığın özünün strukturunda, predmetində, anlayışlarında, ideya və nəzəriyyəsində də yeniləşmə, dəyişikliklər baş verməli, yəni kitabxanaşünaslığın özü də yeniləşməlidir.

Məsələyə aydınlıq gətirmək üçün kitabxanalarda baş verən yeni prosesləri nəzərdən keçirək.

Ənənəvi kitabxanaların fondunda əsasən kitab, qəzet və jurnallar saxlanılırdı. Kitabxanalar isə öz işini fondun tərkibinə uyğun qurur, kitab, qəzet jurnal və s. kimi materialların komplektləşməsini, təsnifləşdirilməsini, düzülüb saxlanmasını, oxucuya verilməsi məsələlərini elmi cəhətdən hazırlayırdı. Müasir kitabxanaların fondunda isə kitab, qəzet, jurnalla yanaşı olaraq elektron vasitələr: elektron kitablar, multimedia vasitələri, disklər, qrammofon valları, kasetlər və s-də saxlanılır. Göründüyü kimi, kitabxanaşünaslığın qarşısında fondun tərkib hissəsinə çevrilən yeni vasitələri öyrənmək, onları komplektləşdirməsi, təsnifləşdirilməsi, düzülüb saxlanması qaydalarını və oxuculara verilməsinin metod və üsullarınıda hazırlamaq zərurəti qarşıya çıxır.

Bütün bunlardan aydın olur ki, informasiya cəmiyyəti kitabxanaların məqsəd və vəzifələrində, strukturunda, kitabxanaçılığın nəzəriyyəsində, ideya və baxışlarında, anlayışlarında böyük inqilabi dəyişiklərin aparılmasını zəruri edir.

Təsadüfi deyil ki, bu dəyişikliklər öz növbəsində kitabxana və kitabxana işi haqqında kompleks elm olan kitabxanaşünaslıqdan da yan keçmədi. Kitabxana təcrübəsindən geri qalmamaq üçün kitabxanaşünaslıq elmi bu dəyişikliklərin aparılmasına ciddi diqqət yetirməli oldu. Kitabxana işində baş verən kompüterləşmə, informasiyalaşma, yeni kitabxana və informasiya texnologiyasının tətbiqi bilavasitə elektron vasitələrlə aparılan işin həcmini

[2] Шрайберг.Я.Л. Библиотеки электронная информация и меняющесся общество в информасионном веке: ежегод.докл.конф. «Крым», год 2006.- Сидак, М., 2006.- с. 9

genişləndirməklə, tamamilə yeni kitabxana təcrübəsinin formalaşmasına gətirib çıxardı. Məhz bu təcrübə prosesində yeni istilahlar "elektron kitabxana işi" və "elektron kitabxanaşünaslıq" istilahları yarandı.

Elektron kitabxana işi və elektron kitabxanaşünaslıq ideyasını zaman özü yaratdı. İnformasiya cəmiyyəti şəraitində elektron vasitələrin: elektron nəşrlərin, elektron kitabların, multimedia materiallarının, disklərin, kasetlərin kitabxana fondlarına daxil olması, kitabxanaların kompüterləşdirilməsi, avtomatlaşdırılması, mexanikləşdirilməsi; elektron kataloqların, elektron məlumat vasitələrinin yaradılması, informasiya-kommunikasiya texnologiyasının oxuculara xidmət işinin təşkilində mühüm vasitəyə çevrilməsi, internetdə oxucuya xidmət prosesində əsas amillərdən biri kimi istifadə edilməsi elektron kitabxanaşünaslığın (elektron vasitələrini öyrənən, təbliğ edən onlara işləyən bir elmi-nəzəri və təcrübi bir elm sahəsinin) meydana çıxmasını tələb edirdi.

Elektron kitabxanaşünaslıq istilahı XX əsrin axırları və XXI əsrin əvvəllərində ilk dəfə ABŞ-da, daha sonra isə Qərbi Avropa ölkələri mətbuatında işlənməyə başlandı. Elektron kitabxanaşünaslıq istilahı ifadəsini ilk dəfə işlədənlərdən biri ABŞ-ın Havay Universitetinin İnformasiya və kompüter elmləri fakültəsinin kitabxanaçılıq-informasiya elmləri üzrə professor köməkçisi Piter Djakso tərəfindən hələ 2000-ci ildə irəli sürülmüşdür. Piter Djaksoya görə, elektron və yaxud rəqəmsal kitabxanaşünaslıq ənənəvi kitabxanaşünaslığın bir çox formalarından biridir və onun üç tərkib hissəsi vardır: 1) Jurnalların rəqəmsal fondu, konfransların məlumat kitablarının, almanaxların, ensiklopediyaların, lüğətlərin, hazır informasiya nəşrlərinin və məlumat bazaları toplusu. 2) Ən yaxşı formalaşmış məlumat aparatı və ən yaxşı veb kataloqu və onlardan istifadə mexanizmi. 3) Elektron resursları yaradan yüksək ixtisaslı kitabxana-informasiya mütəxəssisləri. Belə mütəxəssislər dövrlə, zamanla ayaqlaşmağı bacaran, həm ənənəvi kitab və dövri mətbuatla, həm də elektron nəşrlərlə, elektron kitablarla, vasitələrlə işləyə bilən ənənəvi kitabxanaçılıqla elektron kitabxanaçılığı yaradıcı surətdə əlaqələndirə bilən kitabxanaçı-informatiklər olmalıdır.

Piter Djaksonun elektron kitabxanaşünaslığın tərkib hissəsi kimi göstərdiyi üç əlamət demək olar ki, müasir elmi və xüsusi kitabxanaların əksəriyyətində yaradılmış və oxucuların istifadəsinə verilmişdir. Hazırkı şəraitdə əsas vəzifə elektron vasitələrlə aparılan kitabxana işini daha da təkmilləşdirmək, əldə edilmiş təcrübəni ümumiləşdirmək, nəzəri cəhətdən əsaslandırıb elmi anlayışlar yaratmaqdır.

Elektron kitabxanaların yaradılması və fəaliyyəti ilə bağlı elmi-nəzəri və təcrübi məsələlərlə yanaşı belə kitabxanaların yaradılmasının təşkilati məsələlərini də həll etmək lazım gəlir. Çünki bu mühüm problemi həll etmədən istiqamətverici fikirləri formalaşdırmadan problemin həllinə aydınlıq gətirmək mümkün olmayacaq. Bu mühüm problemi həll etmək üçün hər





şeydən əvvəl müəyyən etmək lazımdır ki, elektron kitabxanalar müstəqil müəssisə olmalıdır, yoxsa ənənəvi kitabxanaların yanında təşkil edilməli, onların strukturuna daxil edilməlidir.

Bu məsələyə münasibət birmənalı deyil. Bir qrup mütəxəssislər, əsasən informatiklər belə müəssisələrin, yəni elektron kitabxanaların müstəqil fəaliyyət göstərməsinə üstünlük verirlər. Doğrudur, onların sayı çox azdır. Həm də zaman keçdikcə onların sayı daha da azalır. İkincilər isə azda olsa informatiklər, ənənəvi kitabxanaçılar, elm və təhsil sahəsində çalışan mütəxəssislər və demək olar ki, bütün oxuculardır. İkinci qrup insanlar elektron kitabxanaların müstəqil olmasının oxuculara xidmət işinin təşkilini çətinləşdirdiyini, oxuculara ayrı-ayrı kitabxana müəssisələrindən istifadə etmək məcburiyyətində qalacağını, vahid, bütöv kitabxana xidmətindən məhrum olacaqlarını ön plana çəkirlər.

Həmçinin, müstəqil elektron kitabxanaların yaradılması dövlət təşkilatlarının, ayrı-ayrı idarə və müəssisələri böyük maddi çətinliklər qarşısında qoyduğunu, əlavə maliyyə vəsaitlərinə ehtiyac yaranmasını və bu vəsaitlərin asanlıqla əldə edilə bilməməsini əsas müddəa kimi irəli sürür.

Doğrudur, dünyanın super dövlətlərindən bəzilərində "elektron kitabxanalar" təşkil edilmişdir. Ancaq elektron kitabxanaların fəaliyyəti və təcrübələri istənilən nəticəni, verməddiyindən, oxuculara kitabxana-informasiya xidmətinin səmərəli, keyfiyyətli təşkili haqqında nə oxucular nədə ki, kitabxanaların təşkilatçıları hələlik ciddi optimal fikir söyləməkdən çəkinirlər. Belə olduğu tərzdə çoxsaylı oxucuların, görkəmli alimlərin, ziyalıların və yüksək ixtisaslı peşəkar kitabxanaçıların belə bir qənaəti ilə razılaşmaq yerinə düşər ki, ənənəvi kitabxanalarla, elektron kitabxanaların vahid, bütöv bir kitabxana müəssisəsində birləşməsi müasir oxuculara kitabxana informasiya xidmətinin təşkilində böyük bir töhfə ola bilər. Təcrübə göstərir ki, ənənəvi mədəniyyət və elektron mədəniyyət arasında hec bir münaqişə yoxdur. Elektron mədəniyyət ənənəvi mədəniyyətin davamıdır, onun inkişaf etmiş, daha da təkmilləşmiş, insan intellektinə səmərəli xidmət edən sahəsidir. Elektron kitabxana ənənəvi kitabxananın gələcəyə gediş körpüsüdür, bu körpü nə qədər elmi əsaslara söykənərsə, əsl kommunikasiya sisteminə çevrilə bilər.

Qismən də olsa, biz olduqca qısa mülahizələrimiz əsasında ənənəvi kitabxana, onun yaranması, təkamül prosesi, inkişafı, bəşəri sivilizasiyasının, insan amilinin inkişafında rolu, həmçinin elektron kitabxananın yaranması və inkişafı, cəmiyyətdə tutduğu mövqe haqqında fikirlərimizi şərh etdik.

Müəllifin öz şəxsi ideya, düşüncə və dünya baxışı haqqında söylənilən fikirlərinin doğru olub-olmamasını gələcəyin öhdəsinə buraxaq.

Elektron kitabxana, onun yaranması, ənənəvi kitabxana ilə inteqrasiya prosesi və onların vahidliyi, bütövlüyü, həmçinin birgə iş fəaliyyəti haqqında bəzi məsələlərədə aydınlıq gətirmək yerinə düşərdi.

Ənənəvi kitabxananın strukturuna aşağıdakı şöbələr daxil olur: kitabxana fondu (dillər və saxlanılan çap məhsulunun növləri üzrə); fondun komplektləşdirilməsi və ədəbiyyatın kitabxana qaydası ilə işlənməsi; fondun təşkili, mühafizəsi və işlənməsi; xidmət şöbəsi (abonoment, oxu zalları); məlumat-biblioqrafiya; informasiya xidməti; kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsi; kitabxana kataloqlarının və kartotekalarının təşkili və ondan istifadə; metodiki rəhbərlik və s. şöbələr.

Müasir kitabxanalarda isə dünyada elektron informasiya daşıyıcılarının meydana gəlməsi, bunların ayrı-ayrı növ və formalarının çoxalması, yeni kitabxana-informasiya texnologiyalarının yaradılması və kitabxanada texnoloji proseslərin kompüterləşdirilməsi, internetin cəmiyyətin sosial həyatında mühüm amilə çevrilməsi, insanların məişətinə daxil edilməsi, elektron vasitələrin müasir kitabxanaların strukturuna daxil edilməsini tələb edir. Müasir kitabxana öz ənənəvi kitabxana işi ilə yanaşı elektron vasitələri toplayıb, qoruyub saxlayan və onları sürətlə inkişaf etdirən informasiya cəmiyyətinin sərvətinə çevirən, bilik cəmiyyətinə doğru can atan, insanların-oxucuların istifadəsinə verən, maddiləşmiş bilik, elmi informasiyanın mənbəyi olan kitabdan və elektronlaşmış və yayılmasına böyük imkanları və effekti olan elektron vasitələrin birləşməsindən, qarışığından formalaşan müasir informasiya cəmiyyətinin tələblərinə cavab verə bilən hibridləşmiş, yeni dövrün, informasiya dövrünün kitabxanası yaranmışdır. Yuxarda göstərdiyimiz ənənəvi kitabxananın bütün şöbələrinə, şöbələrdə saxlanılan ənənəvi vəsaitlərin analoqu olan elektron vasitələr daxil olur. Bu proses yeni hibrid kitabxanalarının strukturunda kəmiyyət dəyişiklikliyi ilə yanaşı yeni forma və keyfiyyət dəyişiklikliyinində baş verməsinə səbəb olur. Məhz bu dəyişikliklər ənənəvi kitabxanalarda yeni kitabxana işinin, elektron kitabxana işinin əsasını qoyur.

Ənənəvi kitabxana işinin strukturunda baş verən dəyişiklikləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Kitabxana fonduna yeni elektron vasitələrin; elektron kitabların, elektron nəşrlərin, multimedia sənədlərinin, müxtəlif növ kasetlərin, disklərin, sənədli filmlərin daxil olması, elektron kolleksiyaların, elektron rəflərin yaradılması və elektron vasitələrlə işləyən, onları oxucuların istifadəsinə verən kitabxanaçı-informasioloq kadrların hazırlanması.
- Elektron vasitələrə müvafiq kitabxanalarda elektron vasitələrin təsviri, təsnifi, fondda saxlanması və oxuculara verilməsi qaydalarının yaradılması, oxuculara elektron vasitələri ilə xidmət prosesinin təşkili.
- Ənənəvi kitabxanalarda elektron kataloqların yaranması, elektron kataloq formatının işlənib hazırlanması, elektron kataloqların təbliği, oxuculara elektron kataloqlardan istifadə qaydalarının öyrədilməsi.
- Kitabxanalarda kitabxana-informasiya texnologiyasının tətbiqi. Kitabxanaların avtomatlaşdırılmasının və kompüterləşdirilməsinin intensivləşdirilməsi.
- Kitabxanaların elmi-metodiki şöbələrində elektron vasitələrlə aparılan metodiki işin elmi, nəzəri və təcrübi proseslərinin öyrənilməsi və sistemləşdirilməsi.
- Kitabxanalarda oxuculara kitabxana-informasiya xidmətinin yeni forma və metodlarının hazırlanması və daha da təkmilləşdirilməsi.
- Müasir kitabxanalar oxuculara elektron xidmətinin təşkilində ən prioritet istiqamət olan kitabxanaların kompüterləşdirilməsinin və internetdən istifadə prosesinin ön plana çəkilməsi və s.



KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA
№ 1(10) 2013

Kitabxanaların kompüterləşdirilməsi işinə kitabxanada internet, kompüter şəbəkəsinin qurulmasından başlanmalıdır. Kompüter şəbəkəsi müasir kompüter parkı, periferiya qurğuları, video müşahidə, telekommunikasiya avadanlıqları əsasında yüksək ötürmə sürətinə, fasiləsiz qidalandırma qurğularına maqnit və lent informasiya toplayıcılarına malik olmalıdır.

Burada göstərilənlərdən bir daha aydın olur ki, öz məqsəd və vəzifələri, cəmiyyətdə gedən proseslərə təsir gücü, yeni iş forma və üsulları, böyük texnoloji yenilikləri ilə keçmiş cəmiyyətlərdən kökündən fərqlənən informasiya cəmiyyəti insan zəkasının, biliyinin, yeni kəşf və ixtiraların sürətlə toplanması, itirilməkdən, unudulmaqdan, kiçik bir insan qrupuna xidmət etməkdən, bütünlükdə cəmiyyətə xidmətə yönəldilməsi üçün geniş və məqsədyönlü imkanlara malikdir. İnformasiya cəmiyyətinin bu böyük, bəşəriyyətin inkişafına yönəldilmiş prosesləri insan fəaliyyətinin bütün sahələrinə təsir etmiş, demək olar ki, iqtisadi siyasi, mədəni sahələrə böyük təsir göstərmiş islahatların, aparılmasını zərurətə çevirmişdir.

19969

İnformasiya cəmiyyəti insanın mədəni fəaliyyətinin ən mühüm sahələrindən biri olan kitabxana işinə təsiri daha güclü olmuş, kitabxana işi sahəsində böyük informasiya inqilabı baş vermişdir. Ənənəvi kitabxanaların həyatında baş verən informasiya inqilabı, əsasən özünü kitabxanaların informasiyalaşdırılmasında göstərir. Kitabxanaların strukturunun əsaslı sürətdə dəyişməsinə gətirib çıxaran bu inqilab, kitabxanaların məqsəd və vəzifələrinin dəyişməsinə gətirib çıxarmasa da, kitabxana prosesinin, yeni iş forma və üsullarının, daha proqressiv xidmət növlərinin, elektron kitabxana işinin və elektron kitabxana işini elmi-nəzəri və praktiki cəhətdən təhlil edib öyrənən, elektron kitabxanaşünaslığın meydana gəlməsinə səbəb olmuşdur. Beləliklə, kitabxanaşünas alimlərin tədqiqatlarına və elmi mülahizələrinə əsaslanaraq "elektron kitabxana işinə" və elektron kitabxanaşünaslığa belə tərif verilə bilər. *Elektron kitabxana işi – kitabxana funksiyalarının elektron ortaqlığını həyata keçirən təcrübədir.* Daha doğrusu, elektron kitabxana işi elektron vasitələrlə iş zamanı meydana çıxır.

Elektron kitabxanaşünaslıq kitabxanaşünaslığın kitabxana funksiyala-

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası

rının elektron ortaqlığını öyrənən xüsusi növüdür[3]. Yəni klassik kitabxanaşünaslıq elminin elektron kitabxana işini tədqiq edib öyrənən, yeni sahəsi və yaxud növüdür. Son zamanlar dünya mətbuatında kitabxanaşünasların və informatiklərin müasir dövrün kitabxanaları, onların statusu, strukturu, məqsəd və vəzifələri haqqında da diskusiya xarakterli müzakirələr gedir. Əlbəttə, bu müzakirələrdə iştirakçıların böyük əksəriyyəti ənənəvi kitabxanalara, onların cəmiyyət qarşısında, bəşəriyyət qarşısında böyük xidmətləri yüksək qiymətləndirilir, daha da inkişaf etdirilməsi, informasiya cəmiyyətinin əsas atributlarından biri olması irəli sürülür. YUNESKO isə kitabxana işi haqqında bəyanatında "Kitabxanaları informasiya cəmiyyətinin ürəyi" adlandırdı!. Deməli, informasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifə ənənəvi kitabxanaların ləğvindən yox, onların zamanın tələbi ilə yaranmış, yeni daha proqressiv, kitabxana-informasiya texnologiyası, elektron nəşrlər və informatika elminin son nailiyyətləri olan informasiya-kommunikasiya texnologiyası ilə zənginləşdirməkdən, cəmiyyətin tərəqqisinə xidmət edən "informasiya hamı üçün" devizini yerinə yetirməkdən ibarətdir.

Bunun üçün isə ənənəvi kitabxanalarda elektron vasitələrlə aparılan iş ön plana çəkilmişdir. Çox sevindirici haldır ki, son 20 ildə bu sahədə dünyada bütövlükdə, o cümlədən üzünü inkişafa, tərəqqiyə doğru tutmuş Azərbaycanda olduqca böyük iş görülmüş, respublikamızın böyük elmi, sahəvi kitabxanaları o cümlədən regionlarda yerləşən MKS-lərin informasiyalaşdırılması, kompüterləşdirilməsi, elektron vasitələrlə təkmilləşdirilməsi, informasiya-kommunikasiya texnologiyası ilə təmin edilməsi və internetə qoşulması sahəsində olduqca böyük işlər görülmüşdür. Doğrudur, Azərbaycanda hələlik müstəqil elektron kitabxana yaradılmasına təşəbbüs göstərilməmişdir.

İnformasiya-kommunikasiya texnologiyası və ölkənin informasiyalaşdırılması sahəsində böyük nailiyyətlər qazanan Azərbaycan, kitabxana işinin müasir dünya standartlarına uyğun inkişaf etdirilməsində böyük uğurlar əldə edə bilmişdir. Müstəqil Azərbaycan Dövlətinin kitabxana işinə dair çox mütərəqqi, demokratik prinsiplərə, xalqın milli mədəniyyətinə, ənənələrinə, mentalitetinə söykənən, qabaqcıl dünya kitabxanaçılığının nailiyyətlərindən bəhrələnən, dövlət kitabxana siyasəti formalaşmışdır. Bu siyasət özünü müstəqillik illərində qəbul edilmiş, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan prezidentinin imzaladığı fərman, sərəncam və dövlət proqramlarında əksini tapmışdır. Bu sənədlər içərisində 2008-ci il 6 oktyabrında Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı" üzrə Dövlət proqramı xüsusi əhəmiyyət kəsb edir. Bu proqramda informasiya cəmiyyəti şəraitində kitabxanaların statusu, cəmiyyətdə

[3] Библиосфера, 2007, № 4. c.3-6.





tutduğu mövqe, məqsəd və vəzifələri, sosial funksiyaları, yaxın gələcək üçün inkişaf istiqamətləri, dünya kitabxanaçılıq təcrübəsinə, elmi əsaslara söykənərək ümumiləşdirilmişdir. Proqramda ənənəvi kitabxanaların bəşər mədəniyyətinin tarixi inkişafında böyük və həlledici rolu yüksək qiymətləndirilmiş, kitabxanaların müasir informasiya cəmiyyətinin əsas atributlarından biri kimi dəyərləndirilərək gələcək inkişaf perspektivləri müəyyənləşdirilmişdir.

Proqramda deyilir: "Tarixi-mədəni, ədəbi-bədii və elmi fəlsəfi irsin toplanıb saxlanmasında, nəsildən-nəslə çatdırılmasında və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi bu sahədə əsaslı islahatların aparılmasını, fondlarının müasir informasiya daşıyıcıları ilə zənginləşməsini, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsini, elektron məlumat banklarının yaradılmasını, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir və bütün bunlar mədəniyyət sahəsində dövlət siyasətinin əsas prioritetlərindəndir"[4].

Məlum olduğu kimi, uzun bir dövr üçün qəbul edilmiş Dövlət Proqramlarında metodoloji əhəmiyyət daşıyan fəlsəfi konsepsiyalar irəli sürülür. Məhz 2008-ci ildə qəbul edilmiş Dövlət Proqramından gətirdiyimiz sitat proqramın fəlsəfi konsepsiyasıdır. Bu konsepsiyaya görə, beş minillik tarixi yol keçmiş, milli sərvət olan ənənəvi kitabxanalar, bəşəri mədəniyyətin mühüm tərkib hissəsi kimi qorunub saxlanmalı, yeniləşməli, daim informasiya daşıyıcıları ilə zənginləşməli, dövrlə, zamanla ayaqlaşmalıdır.

Proqramda kitabxanaların bəşəri sərvət kimi qiymətləndirilməsi, onların gələcəkdə də vahid, bütöv, sosial bir müəssisə kimi fəaliyyətini davam etdirməsi zəruri hesab edilmişdir.

Proqram kitabxanaların inkişaf istiqamətlərini müəyyənləşdirməklə, yanaşı, gələcək biliklər cəmiyyətinin əsas atributlarından biri kimi insan kapitalının formalaşmasında mühüm rolunu qeyd etmiş, kitabxana işinin sürətlə informasiyalaşdırılmasını, əhaliyə kitabxana informasiya xidmətinin yeni, elmi əsaslarının hazırlanmasını kitabxanaşünasların əsas vəzifəsi kimi irəli sürmüşdür. Proqramda kitabxanaların bəşəri sərvət kimi qiymətləndirilməsi, onların gələcəkdə də vahid, bütöv sosial bir müəssisə kimi fəaliyyətini davam etdirməyi zəruri hesab etmişdir.

Əgər son 20 illik dünya kitabxanalarının təcrübəsinə əsaslansaq müasir kitabxanaların bölünməzliyi, tamlığı, vahid bir struktura malik olması, hibrid (müxtəlif növ sənədləri, elektron vasitələri saxlayan kitabxana) kitabxana kimi formalaşdığı aydın olur. Həmçinin kitabxana işini tədqiq edib öyrənən kitabxanaşünaslıqda bir elm kimi öz bütövlüyünü, tamlığını, vahidliyini saxlamış, müasir humanitar elmlər sırasında özünə yer tutmağa müvafiq olmuşdur.

[4] Xələfov A. Azərbaycanərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktorinası uğurla davam edir. B., 2009, s. 126.

Beləliklə, son dövrdə ənənəvi kitabxanaların işində baş verən böyük inqilabi dəyişikliklər kitabxanaşünaslığın özünündə də öyrəndiyi obyektin strukturuna müvafiq dərin dəyişikliklərin, baş verməsi zərurətini meydana çıxarır.

Kitabxanaşünaslıq əvvəllər ancaq ənənəvi kitabxana işini tədqiq edib öyrənirdisə, müasir kitabxanaşünaslıq isə həm də müasir dövrdə kitabxanalarda baş verən dərin dəyişikliklərə mavafiq elektron kitabxana işini, informasiya kommunikasiya texnologiyasını, internetdən oxucuların istifadəsinin forma və üsullarını tədqiq edib öyrənməli, yeni elmi-nəzəri tövsiyələr hazırlanmalı, kitabxanaların iş təcrübəsinin ümumiləşdirilməsi əsasında perspektiv planlar, proqramlar və layihələr hazırlanmalıdır.

Məhz buna görədir ki, dünya kitabxanaşünasları və informatikləri son illərdə elektron kitabxanaşünaslığın yaradılması ideyalarını irəli sürür, fikirlər söyləyir diskusiyalar aparırlar. Bu diskusiyaların əsas mahiyyətinə diqqət yetirək:

- Bəşəri təcrübədə vahid, bütöv kitabxanaşünaslıq elmi kimi formalaşan kitabxanaşünaslıq həm ənənəvi həm də elektron kitabxanaları öz vahid obyekti kimi öyrənməlidir? Yoxsa ayrıca elektron kitabxanaşünaslıq yaranmalıdır.

Bu mühüm məsələnin həllində biri-birini tamamlayan elmi-nəzəri fikirlər böyük əksəriyyət təşkil etsə də, fikir müxtəlifliyi və onların həlli qaçılmazdır.

İnformasiya cəmiyyəti şəraitində dünya kitabxana işi tarixində baş verən böyük informasiya inqilabı kitabxana və kitabxana işi haqqında kompleks elm olan kitabxanaşünaslığında böyük təsir etmiş, onun strukturunda və elmi-nəzəri və təcrübi əsaslarının hazırlanmasında islahatlar aparılmasını yeni anlayışlar, ideyalar və baxışların formalaşmasını ön plana çəkmişdir. İlk növbədə kitabxana işinin strukturuna daxil olan elektron vasitələrlə, daim yeniləşən və inkişaf edən kitabxana-informasiya texnologiyası ilə işin təşkilini istiqamətləndirən, yeni nəzəri biliklərin yaradılmasını təmin edən anlayışlar sisteminin yaradılması zərurəti meydana çıxır. Belə ki, kitabxanaların strukturunda elektron vasitələrin özünə geniş yer tutması, bu mühüm və zəruri vasitələrlə oxuculara xidmət etmək üçün yaranan işin forma üsulları elektron kitabxana işinin yaradılması, oxuculara xidmət prosesinə elektron kitabxanaçılıq və yaxud elektron kitabxana işi predmeti daxil edilmişdir.

Nəzəri cəhətdən elektron kitabxana işinin predmetinə "elektron fond", "elektron sənəd", "elektron kitab", "elektron jurnal", "elektron nəşrlər" nəhayət elektron kitabxana və s. anlayışlar və məfhumlar daxildir. Doğrudur, XX əsrin axırlarında və XXI əsrin əvvəllərində elektron vasitələrlə aparılan işin ənənəvi kitabxanaçılıqdan ayrılmasını mühüm amil hesab edən fikirlər var idisə, indi demək olar ki, belə fikirlər tamamilə arxa plana çəkilmiş, elektron





kitabxana işi ənənəvi kitabxana işinin tərkib hissəsi kimi, onun məntiqi davamı kimi öyrənilir. Kitabxana işinin daxili funksiyaları dəyişməz qalır. Dəyişən ancaq onların həyata keçirilməsi üsuludur. Məhz buna görədir ki, ictimai fikirdə elektron vasitələrlə işi kitabxana işi kimi formalaşmışdır. Məsələn, kitabxana fondu, komplektləşdirilməsi və fondun təşkili və idarə edilməsi prosesində ənənəvi fondla yanaşı olaraq elektron vasitələr fondu, məlumat informasiya aparatı təşkil edilərkən elektron-məlumat vasitələrilə iş, kataloqların təşkili prosesində elektron kataloqların yaradılması, ənənəvi kitabxanaların avtomatlaşdırılması, kompüterləşdirilməsi zamanı informasiya-kommunikasiya texnologiyasının tətbiqi, oxuculara xidmətin proqram təminatının aparılması, ölkə əhalisinə vahid bütöv müəssisələr kimi kitab, dövrü mətbuat informasiya vasitələri və elektron vasitələrlə xidmət edən kitabxanalar qarşısında, xüsusi ilə bu mühüm işin təşkilatçısı olan kitabxanaçılar qarşısında, kitabxana müəssisələri üçün yeni texnoloji və informatika biliklərinə yiyələnmiş mütəxəssislər hazırlanması və ənənəvi kitabxanaçılıqla elektron kitabxanaçılığın inteqrasiyasını, elektron vasitələrlə iş apara bilmək təcrübəsini mənimsəmiş peşəkar kitabxana mütəxəssisləri yetişdirilməsini ön plana çəkir. Elektron kitabxana işinin tətbiq edildiyi kitabxanaların iş təcrübəsindən məlum olur ki, ənənəvi kitabxana işi ilə elektron kitabxana işinin forma və məzmununda və metodlarında bir-birini tamamlayan ortaq cəhətlər olsada fərqli cəhətlərdə çoxdur.

Məhz buna görə də elektron kitabxana işinin fərqli cəhətlərin öyrənilməsi və elektron kitabxana işi ilə ənənəvi kitabxana işinin inteqrasiyasının təşkili, birləşdirilməsi xüsusi araşdırmalar aparılması zərurətini tələb edir.

Müasir şəraitdə isə bu işin araşdırılması kitabxanaşünaslıq elminin öhdəsinə düşür.

Kitabxana işinin məzmununda, strukturunda, baş verən dəyişikliklərə müvafiq kitabxanaşünaslığın özünün yeniləşməsi, yeni tədqiqat bölmələrinin yaranması, yeni növlərin formalaşması ön plana çıxır. Kitabxanaşünaslıq bir elm kimi indiyə qədər ancaq ənənəvi kitabxana işini öyrənirdisə, indi zaman kitabxanaşünaslığın qarşısında müasir kitabxanaların strukturuna müvafiq elektron kitabxana işinin öyrənilməsi vəzifəsini də qoymuşdur.

Bu məsələyə aydınlıq gətirmək üçün dünya kitabxanaşünaslarının ənənəvi kitabxanaşünaslığa verdiyi "Kitabxanaşünaslıq kitabxana işinin tarixini, kitabxanaçılıq proseslərinin qanunauyğunluqlarını, xassələrini, xarakterini, strukturunu, sosial funksiyalarını və çap əsərlərindən, ictimai istifadənin təşkili problemlərini tədqiq edib öyrənən ictimai elmdir". tərifə diqqət yetirək.

Göründüyü kimi, kitabxanaşünaslığın XX əsrin ikinci yarısında formalaşmış və elmi dövriyyəyə daxil edilmiş tərifində ancaq ənənəvi kitabxana proseslərinin öyrənilməsi öz əksini tapmışdır. Kitabxanaların informasiyalaş-

dırılması 30 ilə yaxındır ki, kitabxanaların prioritet problemlərindən biri kimi gündəmdədir və demək olar ki, qloballaşan dünyada cəmiyyətin informasiya təminatının olduqca böyük islahatlar aparılmış, informasiya təminatı prosesi xeyli təkmilləşmişdir.

Beləliklə, zaman öz işini görmüş, dövrün tələbi ilə, bizim özümüzün iştirakımızla yeni struktur quruluşuna, keçmiş kitabxanalardan fərqlənən qarışıq (kitab, elektron vasitələr, elektron kitab və s.) – Məhz kitabxanalar meydana gəlmişdir. İndi kitabxana və kitabxana işi haqqında kompleks elm olan kitabxanaşünaslıq təkcə indiyə qədər öyrəndiyi ənənəvi kitabxanaları və kitabxana işini yox, həmçinin kitabxanaların struktur quruluşuna daxil olan bütün məlumat mənbələrini, elektron vasitələri onların kitabxana fondlarında toplanmasını, qorunub saxlanmasını, oxucuların istifadəsinə verilməsinin qanunauyğunluqlarını, xassələrini və xüsusiyyətlərini öyrənib ümumiləşdirən bir elmə çevrilməlidir.

Kitabxanaşünaslıqda bu yeniləşmə prosesi elə getməlidir ki, ənənəvi kitabxanaşünaslıq öz elmi əsaslarını qoruyub saxlaya bilsin və kitabxana fondunda özünə geniş yer tutan və getdikcə sürətlə artan elektron vasitələrdən də oxucuların istifadəsi işini asanlaşdırsın, kitabxanaşünaslığın fundamental elm kimi kompleks inkişafını təmin etsin. Əlbəttə, bu elmi prosesin aparılması o qədər də asan başa gəlməyəcək. Bu prosesin aparılmasında kitabxanaşünas alimlərlə yanaşı müasir, informatika elmini, kitabxana-informasiya texnologiyasını bilən alimlərin birgə fəaliyyəti zərurəti qarşıya çıxır.

Elektron vasitələrin kitabxanalara sürətlə daxil olması qaçılmaz olduğu kimi, elektron kitabxana işinin və elektron kitabxanaşünaslığın yaranmasıda qaçılmazdır. Məhz buna görədir ki, son zamanlarda dünyanın bütün ölkələrində bu problemin həlli görkəmli alimlərin diqqət mərkəzindədir.

Bu baxımdan Amerika alimi Pitra Djaksonun və Rusiyanın görkəmli alimlərindən: Y.Y.Şrayberqin, Y.H.Stalyarovun, A.İ.Zemiskovun, B.A.Tluxovun, O.L.Lavzikinin fikirləri böyük maraq doğurur[5].

Adını çəkdiyimiz alimlər öz mülahizələrində elektron tədqiqatların aparılasını və aparılan tədqiqatlara müvafiq "elektron kitabxana işinin" və "elektron kitabxanaşünaslığın yaranması" labüdlüyünü zamanın tələbi kimi qiymətləndirirlər. Ancaq fikir ayrılığı elektron kitabxanaşünaslığın müstəqil fənn kimi, yoxsa ənənəvi kitabxanaşünaslığın tərkib hissəsi, bir bölməsi və növü kimi qiymətləndirməyin müzakirə obyekti olmasını lazım bilirlər.

Doğrudur, həm klassik kitabxanaşünaslar, həm də informatiklər kitabxanalarda son zamanlar baş verən struktur dəyişiklikləri həm də yeni xidmət növlərinin meydana gəlib formalaşması ilə əlaqədar müxtəlif fikirlər irəli sürürlər. Bunlardan bəziləri elektron kitabxana işinin və elektron kitabxanaşünaslığın ayrıca fənn (predmet) kimi formalaşmasını lazım bilirlərsə, digərləri isə elektron kitabxana işinin və elektron kitabxanaşünaslığı müstəqil fənn (predmet) kimi yox, bütöv fundamental kitabxanaşünaslığın tərkib hissəsi kimi təsəvvür edirlər.

[5] Научные и технические библиотеки. 2002, № 1. с. 123-126; 2005, № 2. с. 94-102





Dünyanın görkəmli alimlərinin və mütəxəssislərinin son zamanlarda kitabxana işində baş verən təcrübəyə söykənən bu fikirlərinə hörmətlə yanaşmaq, problemin həlli üçün tələsmədən araşdırmalar aparmaq məqsədyönlü, gələcəyə istiqamətlənən verən nəticələrə gəlmək zəruridir.

Elmlərin inkişafında proqnozlaşdırmanın böyük nəzəri əhəmiyyətini və informatika elmində informasiya texnologiyasının tətbiqində, kompüterləşmə prosesində, eləcə də müasir dünyanın ən böyük möcüzəsi olan internetin özündə baş verən proseslərdə az da olsa diqqəti cəlb edən qüsurları nəzərə alsaq, məlum olur ki, insanların informasiya təminatında beş min ildən artıq təcrübəsi olan, tarixin sınaqlarından keçmiş, kitabxanaların ənənələrinin, tarixi təcrübəsinin əhəmiyyəti nəinki azalmır, əksinə, yeni elektron vasitələrlə inteqrasiya nəticəsində informasiya cəmiyyətinin ən böyük atributlarından birinə çevrilir. Həmçinin ənənəvi kitabxanaşünaslıqla elektron kitabxanaşünaslıq arasında baş verən qarşılıqlı inteqrasiya, birgə, ortaq xidmət növləri hələ hec zaman mövcud olmayan, olduqca az anlaşılan, dərg edilməyən, gözə görünməz proseslər baş verir ki, bu proseslər insan psixologiyasına, insanın idrakı inkişafına, intellektual səviyyəsinə həlledici təsir göstərir.

Aparılan müşahidələr, elmlərin inkişaf qanunauyğunluqları, təbiəti və daxili imkanları onların (elmlərin) öz mənbəyi etibarilə əbədi, fəaliyyətlərində nə zamanla, nə də məkanla məhdudlaşmayıb, həcminə görə ölçüsüz, vəzifəsinə görə sonsuz (Andre Berte fransız yazıçısı)[6] olmasını təsdiqləyir.

Bu baxımdan fundamental elm kimi kitabxanaşünaslığın müasir kitabxanalarda baş verən struktur dəyişiklikləri ilə əlaqədar yeniləşmə, yeni ideyalar, baxışlar, nəzəriyyələr, anlayışlar irəli sürmək, müasir kitabxanalarda baş verən iş proseslərinin (elektron kitabxana işinin) qanunauyğunluqlarını, xassələrini, xüsusiyyətlərini öyrənmək, ümumiləşdirmək və yeni xidmət sistemləri və prosesləri yaratmaq imkanları böyükdür. Kitabxanaşünaslıq bu imkanlardan müvəffəqiyyətlə istifadə etməklə müəyyən uğurlar qazanmışdır. Müasir kitabxanalarda baş verən yeni proseslərə müvafiq yaranan elektron kitabxanaçılığın və elektron kitabxanaşünaslığın yaranmasında iştirak edir, onların kitabxanaşünaslığın tərkib hissəsi kimi formalaşmasına təkan verir.

Müasir kitabxanalarda elektron vasitələrin tətbiqinin geniş miqyas alması, elektron kitabxana işinin və elektron kitabxanaçılığın yaranmasını qaçılmaz etdiyi kimi, bunların bir elm kimi formalaşmasıda qaçılmazdır.

Kitabxanaların son dövr durumlarının və baş verən iş proseslərinin

[6] Əli Polad. Üç min ilin hikməti. B., 2007, s. 288.

təhlili göstərir ki, kitabxanalarda həqiqətən elektron kitabxana işi və yeni kitabxana işini öyrənib ümumiləşdirən elektron kitabxanaşünaslıq yaranmışdır.

Rus kitabxanaşünaslarından B.A.Qulixov və O.L.Lovrik "elektron kitabxana işinə" və "elektron kitabxanaşünaslığa" aşağıdakı kimi tərif vermişdir.

- Elektron kitabxana işi-elektron mühit vasitəsi ilə kitabxana funksiyalarının reallaşdırma praktikasıdır.
- Elktron kitabxanaşünaslıq elektron mühit vasitəsi ilə kitabxana funksiyalarının reallaşdırılmasının xüsusiyyətlərini öyrənən xüsusi kitabxanaşünaslıq növüdür[7].

Müəlliflərin təklif etdiyi bu islahatların bilavasitə kitabxanaların son dövr təcrübəsinə əsaslanması maraq doğursa da bu problem demək olar ki, hələlik kitabxanaşünaslıq elmi ədəbiyyatında öz həllini tapmamışdır. Hazırda dünya kitabxanaşünaslığında vahid, stabil fikrin formalaşmamasını, təcrübəli peşəkar kitabxanaçıların, kitabxanaşünaslığın əbədiliyini, bütövlüyünü, tamlığını, böyük tarixi yol keçməsini müdafiə etdiyini nəzərə alaraq kitabxanaşünaslığın fundamental elm kimi bütövlüyünə, bölünməzliyinə və tamlığına üstünlük verilməlidir. Böyük tarixi keçmişə malik kitabxanaşünaslıq həmişə kitabxanaların iş təcrübəsinə, onların öyrənilib ümumiləşdirilməsinə söykənərək, keşmə-keşli, daşlı-kəsəkli yol keçmiş, çətinliklədə olsa öz bütövlüyünü saxlayaraq əbədiləşmişdir.

Bizcə, kitabxanaşünaslıq vahid bütöv fundamental elmdir. Tarixi təkamül yolu ilə inkişaf və yeniləşmə bütün fundamental elmlərə məxsus anlayış kimi kitabxanaşünaslıqda da qəbul ediləndir.

Kitabxanaların struktur quruluşunda baş verən dəyişikliklər kitabxana işini öyrənən kitabxanaşünaslığın strukturunda da baş verə bilər. Məhz kitabxanaşünaslığın strukturunda baş verən yeniləşmə, elektron vasitələrin qəbulu, saxlanması və oxucuların istifadəsinə verilməsi ilə əlaqədar olduğundan kitabxanaların ayrı-ayrı sahələrinin:

1. Kitabxanaşünaslığın ümumbəşəri əsasları;
2. Kitabxana-informasiya kütləsinin formalaşması nəzəriyyəsi;
3. Kitabxana-informasiya axtarış sistemləri nəzəriyəsi;
4. Oxuculara kitabxana-informasiya xidməti nəzəriyyəsi;
5. Kitabxana işinin informasiyanın iqtisadiyyatı, idarə edilməsi nəzəriyyəsi;
6. Kitabxana işi-informasiya və kitabxanaşünaslığın tarixi və s. sahələrinin tərkib hissəsi kimi öyrənilməlidir.

Kitabxanaşünaslığın hər bir şöbəsində ayrıca ənənəvi kitabxana işi bölməsi və elektron vasitələrlə iş bölməsi yaradıla bilər.

[7] Qulixov B.A, Lvrik O.L. Библиосфера, 2007, №4. с. 3-6.





Məsələn, kitabxana fondu iki bölmədə kitab, dövrü mətbuat fondu və elektron vasitələr fondu. Deməli, kitabxanada vahid fond olduğu kimi kitabxanaşünaslıq elmidə bu fondu vahid, hibrid, qarşılıqlı fond şəklində öyrənərək, nəzəri ümumiləşdirmələr aparmalı, tövsiyələr hazırlamalıdır.

Kitabxanaşünaslığın fundamental elm kimi əbədiliyi, bütövlüyü, tamlığı saxlanılır, hər bölməsi yeni ideyalar, müddəalar və anlayışlarla zənginləşir informatika ilə inteqrasiya edərək, müştərək sürətdə inkişaf edir, zənginləşir, qloballaşır, bəşəri elmə çevrilir.

Beləliklə, elektron kitabxanaşünaslıq anlayışı ayrıca fənn, predmet kimi yox, çox böyük elmi nəzəriyyə, tarixi təcrübəyə, metodologiyaya malik olan kitabxanaşünaslıq elminin tərkib hissəsi kimi başa düşülməlidir.

Bütün burada göstərdiklərimizə əsasən müasir dövr kitabxanaşünaslığına təxminən belə bir tərif vermək olar: Kitabxanaşünaslıq cəmiyyətdə kitabxana işinin tarixini, kitabxanaçılıq prosesinin inkişaf qanunauyğunluqlarını xassələrini, xarakterini, strukturunu, sosial funksiyalarını və çap əsərlərindən, elektron vasitələrdən (elektron kitab) ictimai istifadənin təşkili problemlərini tədqiq edib öyrənən, sistemləşdirən, nəzəri müddəalarla zənginləşdirən humanitar elmdir.

Hörmətli oxucu! Dediklərimizin geniş elmi müzakirəyə böyük ehtiyacı olduğundan, məqalə haqqında öz fikirlərinizi və təkliflərinizi bildirməyiniz xahiş olunur.

## Ədəbiyyat

1. Kramer S.S. Tarix Şumerdən başlanır. B.- 2009.- 280 s.
2. Kazımi P.F. İnformasiya mühəndisliyi. B., Bakı Universiteti, 2011.- 235 s.
3. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. I hissə.- Bakı, 2001, 398 s.
4. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. II hissə.- Bakı, 2003, 314 s.
5. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı, 2006, 312 s.
6. Xələfov A.A. Kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir.- B., 2010.- 186 s.
7. Xələfov A.A. Kitabxanaçılıq fikirlərinin meydana gəlməsi, təşəkkülü və inkişafı // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal, 2010, № 2. s. 7-19
8. Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxanaşünaslığın müasir problemləri// Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal, 2010, № 1. s. 9-14
9. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik: 3 hissədə (H. 3. XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi). Bakı, 2010, 432 s.
10. Xələfov A.A. Kitabxana və kommunikasiya// Kitabxanaşünaslıq və

informasiya: Elmi-nəzəri və praktik jurnal, 2011, № 1(4). s. 4-16

11. Xələfov A.A. Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı tarixindən (1947-2011-ci illər)// Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal, 2010, № 1. s. 9-14

**Rus dilində**

12. Библиотеки в обществе знаний (Двухязычный азербайджанско-российский проект).-Б.,2006.-516 с.
13. Библиотековедение//Научно-практический журнал, 2011, № 6 Москва
14. Викторовна Н.Б.,Абрамович Л.К. Сбор и сохранение цифровой информации: правовые аспекты//Бибилотековедение: научно-практический журнал, 2011, № 6, с.34-44
15. Глухов В.А. Электронные библиотеки. Организация, технология и средства доступа\ В.А.Глухов, О.Л.Голицина, Н.В.Максимов\\ Науч.-техн.информ.Сер.1. Орг. и методика информ. работы.-2000.- № 10.- с.1-8.
16. Глухов В.А., О.Л.Лаврик «Электронное библиотечное дело» Библиосфера, 2007, № 4, с.3-6
17. Джаксо П. Что такое електронное библиотековедение? \\ Науч.и техн. б-ки.-2002.-№ 1.-с.123-126
18. Джиго А.А. Электронные ресурсу в информационно-телекоммуникационной среде\\Библиотековедение: научно-практический журнал, 2011, № 6, с.32-33
19. Земсков А.И. Электронные библиотеки: учеб.для вузов\А.И.Земсков, Я.Л.Шрайберг.- М.,2003.-351 с.
20. Карташов Н.С., Скворцов В.В., Общее библиотековедение.- М., 1996.-90 с
21. Карташов Н.С. Сравнительное библиотековедение\\Российское библиотековедение: XX век: направления развития, проблемы и итоги: опыт моногр. исслед.-М., 2003.-С.331-347
22. Константинович В.К. Учебно-методическое соправождение бакалаврсой управленческой подготовки библиотечно-информационных кадров в контексте формирования профессиональных компетенций \\ Библиотековедение: научно-практический журнал, 2011, № 6, с.110-116
23. Столяров Ю.Н. Электронное библиотековедение\\Науч.и техн.б-ки.-2005.- № 2.- с.94-102
24. Шира Дж.Х. Введение в библиотековедение.- М., 1983.- 256 с.
25. Шрайберг Я.Я. Бибилотеки электронная информация и меняюцееся общество в информационном веке.- М., 2006.- 35 с.





## MODERN LIBRARY SCIENCE PROBLEMS

**A.A.XALAFOV**
***Baku State University, doctor of historical sciences, professor***
**axelefov@mail.ru**

### SUMMARY

The article is widely considered the problem of library science in the information society, summarizes news cientificand practical ideas, «electronic library work»,«electronic libraryscience», accordingtotheir scientificand practical analysis, and proved to be an integral part of the library.

**Key words:** *library, electronic library, printed, e-book.*

## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ БИБЛИОТЕКОВЕДЕНИЯ

**А.А.ХАЛАФОВ**
***доктор исторических наук***
***Бакинский Государственный Университет, профессор***
***axelefov@mail.ru***

В статье широко рассмотрена проблема библиотековедения в условиях информационного общества, обобщены новые научно-практические идеи, «электронная библиотечная работа», «электронное библиотековедение», соответственно их научно-практический анализ, и обоснована как неотъемлемая часть библиотековедения.

**Ключевые слова:** *Библиотековедение, электронное библиотековедение, печатная продукция, электронная книга.*